


AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

Dekabr 2019

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

# “AZƏRBAYCAN RESPUBLİKASI HAZIRDA ÖZÜNÜN PARLAQ VƏ DAVAMLI İNKİŞAF DÖVRÜNÜ YAŞAYIR”

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə
dünya azərbaycanlılarına müraciətindən



“Bu gün Azərbaycan dövləti müstəqil daxili və xarici siyasəti, artan beynəlxalq nüfuzu, iqtisadi, siyasi və hərbi gücü ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bir çox qlobal transmilli və regional layihələrin təşəbbüskarı və iştirakçısı olan ölkəmiz dünyanın enerji təhlükəsizliyinə sanballı töhfələr verməklə, regionda mühüm tranzit və logistika mərkəzinə çevrilmişdir. Zəngin təbii resurslarımız və iqtisadi potensialımız Azərbaycanın geostrateji mövqelərinin daha da üclənməsinə etibarlı zəmin yaradır və biz buistiqamətdə ardıcıl siyasətimizi davam etdirəcəyik...

Azərbaycan Respublikası hazırda özünün parlaq və davamlı inkişaf dövrünü yaşayır. Dünyanın müxtəlif guşələrində məskunlaşan, lakin qəlbi daim Azərbaycan eşqi ilə döyünən soydaşlarımız da bu tarixi prosesdən kənarda deyil və onların xalqımızın tərəqqisində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində təqdirəlayiq xidmətləri yüksək qiymətləndirilməlidir”.

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ______ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ______ səh. 11

2019-cu ilin yanvar-noyabr aylarında Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 1164,1 milyon manatlıq əməliyyat aparmışlar ______ səh. 15

Azexport.az portalına 2019-cu ilin yanvar-noyabr aylarında 532,3 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ______ səh. 17

Cari ildə “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 140,4 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir ______ səh. 21

Sahibkarlarla "İxracatçılara dəstək layihəsi" müzakirə olunmuşdur ______ səh. 24

Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərinə ixrac missiyası təşkil olunmuşdur ______ səh. 25

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2019-cu ilin **YANVAR-NOYABR AYLARINDA** qeyri-neft sektoru üzrə **1 milyard 781 milyon** ABŞ dolları dəyərində mal **İXRAC OLUNMUŞDUR**

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **249 milyon** ABŞ dolları və ya **16%** artmışdır

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin məlumatına əsasən 2019-cu ilin yanvar-noyabr ayları ərzində ölkəmizin ixracı **18,3 milyard** ABŞ dolları təşkil etmiş və ötən ilin müvafiq dövrünə nisbətən **365 milyon** ABŞ dolları və ya **2 faiz** artmışdır. Bu müddətdə qeyri-neft sektoru üzrə **1 milyard 781 milyon** ABŞ dolları dəyərində ixrac reallaşdırılmışdır. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin 11 ayında qeyri-neft sektoru üzrə ixrac **249 milyon** AbŞ dolları və ya **16 faiz** artmışdır. Cari ilin yanvar-noyabr ayları ərzində Rusiyaya **622,3 milyon**, Türkiyəyə **363,3 milyon**, İsveçrəyə **164 milyon**, Gürcüstana **150,6 milyon** və Ukraynaya **46,3 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin 11 ayında Rusiyaya qeyri-neft ixracı **12 faiz**, Türkiyəyə **13 faiz**, İsveçrəyə **33 faiz**, Gürcüstana **29 faiz** və Ukraynaya **27 faiz** artmışdır. Eyni zamanda qeyri-neft sektoru üzrə ixracın dəyərində Rusiyaya (34,9 faiz), Türkiyəyə (20,4 faiz), İsveçrəyə (9,2 faiz), Gürcüstana (8,5 faiz) və Ukraynaya (2,6 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

2019-cu ilin yanvar-noyabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında isə pomidor (166,7 milyon ABŞ dolları)

birinciliyini qorumuşdur. Bu siyahıda qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda – 157,7 milyon ABŞ dolları) ikinci və qabığı təmizlənmiş meşə fındığı (113,5 milyon ABŞ dolları) üçüncü olmuşdur.

Həmçinin cari ilin 11 ayında pambıq mahlıcı, xurma, elektrik enerjisi, metanol (metil spirti), xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, ilkin formalı polipropilen də qeyri-neft ixracında önə çıxmışdır.

Ümumiyyətlə, 2019-cu ilin 11 ayı ərzində meyvə-tərəvəz ixracı **541,9 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **168,1 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **117,9 milyon**, pambıq lifi ixracı **108,8 milyon**, kimya sənayesi məhsullarının ixracı **95,5 milyon**, elektrik enerjisinin ixracı **76 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **54,8 milyon**, pambıq ipliyi ixracı **27,3 milyon**, şəkər ixracı **26,4 milyon**, alkoqollu və alkoqolsuz içkilərin ixracı 22,6 milyon ABŞ dolları təşkil etmişdir.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-noyabr aylarında alkoqollu və alkoqolsuz içkilərin ixracı **54 faiz**, pambıq lifinin ixracı **53 faiz**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **52 faiz**, kimya sənayesi məhsullarının ixracı **30 faiz**, pambıq ipliyinin ixracı **28 faiz**, elektrik enerjisi ixracı **17 faiz**, şəkər ixracı **14 faiz**, alüminium və ondan hazırlanan məmulatların ixracı **11 faiz**, meyvə-tərəvəzin ixracı **9 faiz** artmışdır.

2019-cu ilin noyabr ayında isə qeyri-neft sektoru üzrə ixrac **208 milyon** ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin noyabr ayı ilə müqayisədə 2019-cu ilin noyabr ayında qeyri-neft sektoru üzrə ixrac **27 milyon** ABŞ dolları və ya **15 faiz** artmışdır. Cari ilin noyabr ayında qeyri neft-qaz məhsulları ən çox mal Rusiyaya (88,4 milyon ABŞ dolları), Türkiyəyə (38,7 milyon ABŞ dolları), Gürcüstana (19,1 milyon ABŞ dolları), İsveçrəyə (16,4 milyon ABŞ dolları) və Ukraynaya (6,6 milyon ABŞ dolları) ixrac edilmişdir.

2019-cu ilin noyabr ayında qeyri-neft sektoru üzrə ixracda xurma (37 milyon ABŞ dolları) birinci, tomat (pomidor - 19,1 milyon ABŞ dolları) ikinci, pambıq mahlıcı (16,9 milyon ABŞ dolları) üçüncü yerdə qərarlaşmışdır.

Bunlarla yanaşı cari ilin noyabr ayında qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), qabığı təmizlənmiş meşə fındığı, elektrik enerjisi, sair təzə meyvələr (nar və s.), alma, daş kömür qatranının yüksək temperaturlu qovulmanın digər yağları və məhsulları da qeyri-neft sektoru üzrə ixracda mühüm paya sahib olmuşdur.

2019-cu ilin 11 ayında ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

# 2019-CU İLİN **YANVAR-NOYABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
## (2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2019-CU İLİN **NOYABR AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
## (2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2019 İXRAC İCMALI DEKABR



# 2019-CU İLİN **YANVAR-NOYABR AYLARINDA** 2018-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI**

**(Dəyəri milyon ABŞ dolları ilə)**



# 2019-CU İLİN YANVAR-NOYABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

**(Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI DEKABR

| Mal | 2019 | 2018 |
|---|---|---|
| Tomat (pomidor) | 166,7 | 162,2 |
| Qızıl | 157,7 | 107,2 |
| Fındıq ləpəsi | 113,5 | 80,2 |
| Mahlıc | 107,4 | 70,1 |
| Xurma | 84,5 | 89,1 |
| Elektrik enerjisi | 76 | 65 |
| Metanol (metil spirti) | 63,5 | 36,1 |
| İlkin formalı polietilen | 59,6 | 68,6 |
| İlkin formalı polipropilen | 59,4 | 4 |
| Digər | 892,8 | 849,2 |

Tomat (pomidor)



Qızıl



Fındıq ləpəsi



Mahlıc



Xurma





Elektrik enerjisi



Metanol (metil spirti)



İlkin formalı polietilen



İlkin formalı polipropilen



Digər

# 2019-CU İLİN **NOYABR AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

| Məhsul | 2019 | 2018 |
|---|---|---|
| Xurma | 37 | 45,2 |
| Tomat (pomidor) | 19,1 | 12,3 |
| Pambıq mahlıcı | 16,9 | 6,3 |
| Qızıl | 15,7 | 7,2 |
| Fındıq ləpəsi | 13,4 | 14,5 |
| Elektrik enerjisi | 13,1 | 5,3 |
| Sair təzə meyvələr | 6,4 | 5,2 |
| Alma | 6,3 | 7,2 |
| Digər yağlar və məhsullar | 4,4 | 5,5 |
| Digər | 72,8 | 72,3 |

# 2018-Cİ İLİN Və 2019-CU İLİN **YANVAR-NOYABR AYLARINDA** əN ÇOX İXRAC EDİLəN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR **(milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI DEKABR

## 2018

| Ay | Mal | Dəyər |
| --- | --- | --- |
| Yanvar | Qızıl | 17,2 |
| Fevral | Elektrik enerjisi | 17,7 |
| Mart | Elektrik enerjisi | 13,6 |
| Aprel | Pomidor | 18,5 |
| May | Pomidor | 54,3 |
| İyun | Pomidor | 43,2 |
| İyul | Pambıq mahlıcı | 16,4 |
| Avqust | Qızıl | 12,6 |
| Sentyabr | Fındıq ləpəsi | 12 |
| Oktyabr | Xurma | 23,3 |
| Noyabr | Xurma | 45,2 |

## 2019

| Ay | Mal | Dəyər |
| --- | --- | --- |
| Yanvar | Xurma | 12,6 |
| Fevral | Elektrik enerjisi | 19,4 |
| Mart | Fındıq ləpəsi | 13,7 |
| Aprel | Pomidor | 24,2 |
| May | Pomidor | 54,6 |
| İyun | Pomidor | 33,8 |
| İyul | Qızıl | 14,7 |
| Avqust | Qızıl | 22,7 |
| Sentyabr | Qızıl | 13,1 |
| Oktyabr | Xurma | 27,1 |
| Noyabr | Xurma | 37 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## 2019-cu ilin **YANVAR-NOYABR AYLARINDA** qeyri-neft sektoru üzrə **ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ**

"İxrac İcmalı" tərəfindən qeyri-neft sektoru üzrə 2019-cu ilin yanvar-noyabr ayları üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

Cari ilin yanvar-noyabr ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Socar Polymer" MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Nine Climate" MMC, "Global Export Fruits" MMC, "Sun Food" MMC, "Baku Steel Company", "Azərbaycan Şəkər İstehsalat Birliyi " MMC, "Natural Fruit" MMC, "Caspian enerji-2020" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azəralüminium" MMC, "Azergold" QSC, "Azərenerji" ATSC, "Azərbaycan Hava Yolları" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "CTS-Agro" MMC, "Azərtütün Aqrar Sənaye Kompleksi" MMC, "Azərikimya" İB, "Bakı Neft Maşinqayırma Zavodu" TASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



# 2019-CU İLİN YANVAR-NOYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2018-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2019 İXRAC İCMALI DEKABR

| | 2019-cu il | 2018-ci il |
|---|---|---|
| "AZƏRBAYCAN İNTERNEYŞNL MAYNİNQ KOMPANİ LİMİTED ŞİRKƏTİ"NİN AZƏRBAYCAN RESPUBLİKASINDAKI NÜMAYƏNDƏLİYİ | 95,4 milyon | 97,3 milyon |
| * "SOCAR POLYMER" MMC | 72,2 milyon | 4 milyon |
| "MKT İSTEHSALAT KOMMERSİYA" MMC | 60,1 milyon | 54,5 milyon |
| "NINE CLIMATE" MMC | 44,6 milyon | 0 |
| "GLOBAL EXPORT FRUITS" MMC | 33,2 milyon | 0 |
| "SUN FOOD" MMC | 28,4 milyon | 24,9 milyon |
| "BAKU STEEL COMPANY" MMC | 26,5 milyon | 52,8 milyon |
| "AZƏRBAYCAN ŞƏKƏR İSTEHSALAT BİRLİYİ" MMC | 26,2 milyon | 23,1 milyon |
| "NATURAL FRUIT" MMC | 23,6 milyon | 0 |
| "CASPİAN ENERJİ-2020" MMC | 22,5 milyon | 2,8 milyon |

* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

# 2019-CU İLİN **YANVAR-NOYABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI DEKABR



# 2019-CU İLİN YANVAR-NOYABR AYLARINDA "AZƏRKOSMOS" ASC 40,6 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR



2019-cu ilin yanvar-noyabr aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **26 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **89 faizini** təşkil etmişdir. 2019-cu ilin noyabr ayında isə "Azərkosmos" ASC dünyanın **19 ölkəsinə 3,1 milyon** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.




2019-cu ilin yanvar-noyabr aylarında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**

| Ölkə | Dəyər |
|---|---|
| Fransa | 11 milyon $ |
| ABŞ | 9 milyon $ |
| Malayziya | 8,4 milyon $ |
| Birləşmiş Krallıq | 7,9 milyon $ |
| BƏƏ | 1,3 milyon $ |



2019-cu ilin **YANVAR-NOYABR AYLARINDA** Azərbaycana gələn xaricilər **BANK KARTLARI VASİTƏSİ İLƏ** **1164,1 milyon** manatlıq əməliyyat aparmışlar

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə **CARİ İLİN** birinci yarısında ölkəmizə **11 faiz** çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir

2019-cu ilin yanvar-noyabr aylarında Azərbaycana dünyanın 192 ölkəsindən 2923,8 min və ya 2018-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə 11 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən gələnlərin 29,7 faizi Rusiya Federasiyası, 22,6 faizi Gürcüstan, 9,9 faizi Türkiyə, 8,0 faizi İran, 3,5 faizi Səudiyyə Ərəbistanı, hər birindən 2,0 faiz olmaqla Birləşmiş Ərəb Əmirlikləri və Hindistan, 1,9 faizi Ukrayna, 1,7 faizi Türkmənistan, 1,6 faizi İraq, hər birindən 1,5 faiz olmaqla Qazaxıstan və İsrail, 1,4 faizi Pakistan, 1,2 faizi Böyük Britaniya, 11,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur.

Ölkəmizə yanvar-noyabr aylarında gələnlərin sayında daha çox artım Türkmənistan (90,0 faiz), Hindistan (67,7 faiz), Çin (63,1 faiz), Misir (58,5 faiz), Malayziya (51,2 faiz) vətəndaşları arasında qeydə alınmışdır.

2019-cu ilin yanvar-noyabr aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 22,0 faiz artaraq 130,0 min nəfər, MDB ölkələrindən gələnlərin sayı isə 9,1 faiz artaraq 1060,0 min nəfər olmuşdur.

Cari ilin noyabr ayında ölkəmizə gələn xarici vətəndaşların sayı **13,3 faiz** artmış və onların bank kartları vasitəsi ilə apardıqları əməliyyatları ötən ilin noyabr ayı ilə müqayisədə **18,5 faiz** artaraq **90,3 milyon** manat təşkil etmişdir. Ümumilikdə isə 2019-cu ilin yanvar-noyabr ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **1164,1 milyon** manat təşkil etmişdir.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLARIN DƏYƏRİ **(milyon manatla)**

## 2017

Yanvar - **86,8**
Fevral - **72,5**
Mart - **91,1**
Aprel - **80,6**
May - **92,6**
İyun - **83,8**
İyul - **95,7**
Avqust - **100,8**
Sentyabr - **93,2**
Oktyabr- **74,4**
Noyabr- **72,1**

**Cəmi - 943,6**

## 2018

Yanvar - **99,8**
Fevral - **91,1**
Mart - **105,8**
Aprel -**109,7**
May -**107,3**
İyun - **106,7**
İyul - **126,3**
Avqust - **141**
Sentyabr - **114,6**
Oktyabr - **117**
Noyabr - **76,2**

**Cəmi - 1195,5**

## 2019

Yanvar - **88,3**
Fevral - **85,3**
Mart - **98**
Aprel - **103,2**
May -**100,9**
İyun - **115,1**
İyul - **134,6**
Avqust - **137,4**
Sentyabr - **106,2**
Oktyabr - **104,7**
Noyabr - **90,3**

**Cəmi - 1164,1**

3

# AZEXPORT.AZ PORTALINA 2019-CU İLİN YANVAR-NOYABR AYLARINDA 532,3 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

**ÖTƏN İLİN MÜVAFİQ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ** portala daxil olan **ixrac sifarişləri dəyər** baxımından **11 faiz ARTMIŞDIR**

2019-cu ilin yanvar-noyabr aylarında Azexport.az portalına **532,3 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-noyabr aylarında ixrac sifarişləri **11 faiz** artmışdır. 2019-cu ilin noyabr ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **54,9 milyon** ABŞ dolları təşkil etmiş və ötən ilin müvafiq ayı ilə müqayisədə 19 faiz artmışdır. 2019-cu ilin yanvar-noyabr aylarında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya (12,3%), Türkiyə (7,4%), İngiltərə (5,4%), Hindistan (5,3%) və ABŞ (5,3%) qərarlaşmışdır.

Cari ilin noyabr ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq, tütün, toyuq əti, toyuq yumurtası, şərab, qənnadı məhsulu, çay, sarımsaq, nar, nar konsentratı, göbələk, mebel dəsti, tikinti, materialı, fındıq ləpəsi, alma, soğan, boya, qızıl gül, kosmetik vasitə və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2019-cu ilin 30 noyabr tarixinə kimi (35 ay ərzində) Azexport.az portalına dünyanın **138 ölkəsindən** daxil olan ixrac sifarişlərinin dəyəri **1 milyard 521,4 milyon** ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

## **AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(milyon ABŞ dolları ilə)**




Yanvar - **91,7**
Fevral - **53,9**
Mart - **32,8**
Aprel - **50,9**
May - **32,5**
İyun - **41,3**
İyul - **43,5**
Avqust - **52,7**
Sentyabr - **37,1**
Oktyabr - **41**
Noyabr - **54,9**

2017-ci il ərzində
**CƏMİ - 475**

2018-ci il üzrə
**CƏMİ - 514,1**

2019-cu il
**CƏMİ - 532,3**



Son **35 ay** ərzindəki sifarişlərin cəmi - **1 521,4**

# 2019-CU İLİN NOYABR AYINDA AZEXPORT.AZ PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2019 İXRAC İCMALI DEKABR

## Pambıq lifi və pambıq toxumu



## Tütün



## Toyuq əti və yumurtası



## Şərab



## Qənnadı məhsulu



## Çay



## Sarımsaq



## Nar və Nar konsentratı



## Göbələk



## Mebel dəsti



## Tikinti materialı




## Fındıq ləpəsi



## Alma



## Soğan



## Boya



# 2019-CU İLİN **YANVAR-NOYABR AYLARINDA AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN **ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR** ÜZRƏ BÖLGÜSÜ






4

# CARİ İLDƏ "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 140,4 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

2019-cu ilin dekabr ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən fiziki və hüquqi şəxslərə ixracla bağlı müvafiq sertifikatlar verilmişdir. Qeyd edək ki, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin xidmətlərindən Teymur Əhmədov adına "AZNAR" QSC, "Baku Steel Company" MMC, "Azərtütün" MMC, "Nutsoil" MMC, "Azvarvara" MMC, "AzerGold" QSC, "Sadoil" MMC, " "Atena" MMC, "Az-Granata" MMC, "Gilan Tekstil Park" MMC kimi şirkətlərlə yanaşı, fiziki şəxslərdə istifadə etmişdirlər. Nəticədə cari ilin dekabr ayı ərzində Mərkəz vasitəsi ilə verilən ixrac sənədlərinə əsasən **9,7 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Ümumilikdə isə 2019-cu ilin yanvar-dekabr aylarında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən **140,4 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir.

Cari ilin dekabr ayı ərzində ixracatçılara əsasən fındıq ləpəsi, biyan kökü, şərab, pendir, qiymətli metallar, meyvə şirələri, narşərab, polad boru, polad armatur yayması, bağ mebelləri, pambıq tullantısı, qoyun bağırsağı, ayaqqabı altlıqları və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir. Sertifikat verilən məhsullar Rusiya, Gürcüstan, ABŞ, Türkiyə, Ukrayna, Çin, Hindistan, Yaponiya, İran, İspaniya, Banqladeş, Özbəkistan daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac edilmişdir.

Məlumat üçün bildirək ki, 2018-ci ildə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən ixracın dəyəri **150 milyon** ABŞ dolları olmuşdur.



# 2019-CU İLİN YANVAR - DEKABR AYLARINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları ilə)



# 2019-CU İLİN **DEKABR AYINDA "BİR PƏNCƏRƏ"** İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ**

2019 İXRAC İCMALI DEKABR



# 5

# SAHİBKARLARLA "İXRACATÇILARA DƏSTƏK LAYİHƏSİ" MÜZAKİRƏ OLUNMUŞDUR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində "İxracatçılara dəstək layihəsi" çərçivəsində sahibkarlarla görüş keçirilmişdir. Görüş Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Kənd Təsərrüfatı Nazirliyi yanında "Aqrar Tədarük və Təchizat" Açıq Səhmdar Cəmiyyəti, Aqrar Kredit və İnkişaf Agentliyi və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) birgə təşkilatçılığı ilə baş tutmuşdur.

Tədbirdə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin fəaliyyəti, Azexport.az portalı üzərindən ixrac imkanları, Rəqəmsal Ticarət Qovşağının elektron xidmətləri, ixrac əməliyyatlarında qida təhlükəsizliyinin əhəmiyyəti, fermerlər tərəfindən istehsal olunan kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi, bu istiqamətdə ixracatçıların çətinliklərinin aradan qaldırılması ilə əlaqədar nəzərdə tutulan tədbirlər barədə məlumat verilmişdir.

Tədbirin sonunda mövzu ətrafında geniş fikir mübadiləsi aparılmış və sahibkarların sualları cavablandırılmışdır.



# 6

# BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN DUBAY ŞƏHƏRİNƏ İXRAC MİSSİYASI TƏŞKİL OLUNMUŞDUR

Cari ilin dekabr ayının ilk yarısında İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərinə ixrac missiyası təşkil olunmuşdur. Missiyada qida sənayesi, turizm və tikinti materialları istehsalı sahəsində fəaliyyət göstərən 24 Azərbaycan şirkəti iştirak etmişdir.

İxrac missiyası zamanı Azərbaycanın "Azhazelnut" və Birləşmiş Ərəb Əmirliklərinin distribüter şirkətləri 200 min ABŞ dolları dəyərində fındıq məhsulunun yanvar ayında ixracına dair ilkin razılığa gəlmişlər.

"AzərsunHoldinq" və "Gilan FMCG" şirkətləri BƏƏ-dən olan şirkətlər, həmçinin iri market şəbəkələri ilə məhsul ixracı, "İdea" şirkəti isə BƏƏ-nin Abu-Dabi şəhərində fəaliyyət göstərən şirkətlə məhsulların sərgi salonunun (showroom) açılması barədə ilkin razılıq əldə etmişdirlər.

İxrac missiyası çərçivəsində "Ecodry", "AHEC", "Az-granata", "Brightman BMC", "BakuKonserv", "Salam Travel", "Novus E.R.A." və digər Azərbaycan sahibkarları BƏƏ şirkətləri ilə məhsul və xidmətlərin ixracına dair müzakirələr aparmışdırlar.





**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
/iqtisadiislahat
/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

